YUNİSEF, Təhsil və Fövqəladə Hallar nazirliklərinin birgə reallaşdırdığı layihə üzrə keçirilmiş təlimlərdə Şəkidəki 2 nömrəli, Zaqataladakı 3 nömrəli və Suvagil kənd tam orta məktəblərindən seçilmiş müəllimlər iştirak ediblər.

Təlimlərin məqsədi "Təhsildə fəlakət riskinin azaldılması" layihəsi çərçivəsində seçilmiş pilot məktəblərinin müəllimlərinə baş vermiş təbii fəlakətlər, qəzalar, müxtəlif fövqəladə vəziyyətlər zamanı riskli vəziyyətdən çıxış yollarını tapmaq, eyni zamanda fəlakət riskinin azaldılması üzrə bilik və bacarıqların artırılması üçün xilasetmə, eləcə də təhlükəsizlik avadanlıqlarından istifadə qaydalarının öyrədilməsindən ibarət olub.

Təlimin sonunda iştirakçılara təbii fəlakətlər riskinin azaldılması problemi üzrə müəllimlər üçün metodik vəsait və CD disklər paylanılıb.

Təlimlərdə Təhsil və Fövqəladə Nazirliklərin əməkdaşları, YUNİSEF-in nümayəndələri iştirak ediblər.